**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İTALYAN "KARMELİTLƏRİN XRONİKASI"NDA AZƏRBAYCAN TARİXİ MƏSƏLƏLƏRİ

İxtisas: **5509.01**–Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları

Elm sahəsi: Tarix

İddiaçı: **Sevinc Məlikməmməd qızı Məlikzadə**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın orta əsrlər tarixi» şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor **Yaqub Mikayıl oğlu Mahmudov**

**Rəsmi opponentlər:** tarix elmlər doktoru, professor **Adil Baxşəli oğlu Baxşəliyev**

tarix üzrə fəlsəfə doktoru **Zərifə Firudin qızı Nəzirli**

tarix üzrə fəlsəfə doktoru **Nurlan Paşa oğlu Nəsirov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 saylı Birdəfəlik Dissertasiya şurası.

Disssertasiya şurasının sədri: tarix elmləri doktoru, professor

____________ **Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix üzrə fəlsəfə doktoru, dosent

____________ **İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, dosent

____________ **Vaqif Şirin oğlu Abışov**

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Əlverişli coğrafi-tarixi məkanda yerləşən Vətənimiz Azərbaycan hələ qədim dövrlərdən etibarən qonşu dövlətlərlə yanaşı, Avropa və Asiyanın bir sıra dövlətləri ilə də diplomatik, siyasi, iqtisadi və mədəni əlaqələrin yaranması və inkişaf etdirilməsində olduqca əhəmiyyətli rol oynamışdır. Yaranmış bu əlaqələr tarixin yaddaşında öz əksini müxtəlif formalarda tapmışdır. Bu əlaqələr haqqında məlumatlara bəzən daş kitabələrdə, digər maddi mədəniyyət nümunələrində, əksər hallarda isə yazılı qaynaqlarda rast gəlirik. Bu mənbələrin heç də hamısı yerli mənbələr olmamışdır.

Əgər nəzərə alsaq ki, Azərbaycan min illərlə ölçülən dövlətçilik tarixinə və zəngin mədəniyyətə malik bir ölkədir, qədim dövrlərdən son orta əsrlərədək Azərbaycan ərazisində Manna, Midiya, Albaniya, Atropatena, Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Eldənizlər (Azərbaycan Atabəyləri), Elxanilər (Hülakülər), Cəlairilər, Qaraqoyunlular, Ağqoyunlular dövlətləri, indiki İran və İraq coğrafiyası da daxil olmaqla təxminən 3.500.000 kvadrat kilometr ərazidə Azərbaycan Səfəvilər imperiyası təşəkkül tapmış, bunun ardınca Nadir şah Əfşarın daha geniş ərazili imperiyası yaranmış və beləliklə, ölkəmiz və xalqımız Şərqin ictimai-siyasi, iqtisadi, mədəni və dini -ideoloji həyatında mühüm rol oynamışdır. Məhz buna görə də bu rolun müəyyənləşdirilməsi, mənbələrin üzə çıxarılması, araşdırılması və geniş oxucu dairəsinə təqdim edilməsinə hər zaman ehtiyac vardır.

Azərbaycan tarixinin son orta əsrlər dövrünə aid xarici ölkələrdə nəşr olunmuş mənbələr sırasında isə "Karmelitlərin xronikası" xüsusi yer tutur. Əslində, tədqiq olunan mövzunun aktuallığı da məhz bununla bağlıdır. Səfəvilər dövrünə aid olan həmin salnamə Vatikanda mühafizə olunur. Xatirə-yazışma tipli latındilli bu əsər ilk dəfə ingilis dilində 1939-cu ildə nəşr

edilmişdir. İki cilddən ibarət olan “Karmelit Xronikası” 2012-ci ildə ingiliscə təkrarən nəşr olunmuşdur[1].

Karmelitlər orta əsrlərdə Avropada və Şərq ölkələrində fəaliyyət göstərmiş xristian missioner təşkilatlardan biridir. Təşkilat 1155-ci ildə Fələstində Karmel dağında xaçlılar və xaçlı əsgərlər tərəfindən yaranmışdır.Təriqətin məhz Karmel dağında yaranmasının səbəbi İlyas peyğəmbərin Karmel dağında yaşaması ehtimalı ilə bağlıdır. İlk karmelitlər hücrələrdə yaşayan və özünü dünya nemətlərindən uzaq tutan keşişlər idi. Amma Fələstində xaçlıların məğlubiyyətindən sonra 1240-cı illərdə keşişlər Kipr, Siciliya, Fransa və İngiltərəyə yayıldılar. Karmelitlərin ilk rəsmi toplantısı 1247-ci ildə İngiltərədə keçirilmişdir. Açıq fəaliyyətə keçən karmelitlər Avropada dominikan və fransiskanlara çox bənzəyən bir təriqət kimi kütlə arasında tanındılar. İlk karmelit rahibə təşkilatı 1452-ci ildə qurulmuşdur. 1562-ci ildə isə Aziza Teresa tərəfindən “Yalın Ayaqlı Rahibələr” təşkilatı yarandı. İslahatçı karmelitlər ayaqqabı əvəzinə səndəl geyindikləri üçün bu adı almışdılar. Karmelitlər 1593-cü ildə Papanın fərmanı ilə rəsmi təriqətə çevrilmişdilər. XVII əsrin əvvəllərindən isə Papa tərəfindən xüsusi tapşırıqlarla Şərq ölkələrinə göndərildilər.

Əsərlə tanışlıq göstərir ki, 1604-cü ildə Papa VIII Kliment (1592-1605) Polşa Kralı III Vasa Sigizmundun (1587-1632) yaxından dəstəyi ilə Katolik rahiblərini (Discalced Carmelite fathers) İrana (Əsərdə Səfəvilər imperiyası İran kimi xatırladılır – S.M.) göndərmişdir. Göndərilmiş missionerlərin əsas hədəfi hələ Şah Təhmasiblə (1524-1576) əlaqələrin qurulmasında xüsusi fəallığı ilə seçilən Papa V Piy (1566-1572) tərəfindən əsası qoyulan Osmanlı imperiyası əleyhinə müttəfiq axtarmaq olmuşdur. Karmelitlərin iki cilddə toplanmış məlumatları Azərbaycan tarixinin XVI-XVIII əsrlər dövrü ilə bağlı bir çox həqiqətləri üzə çıxarmaqda əvəzsiz imkanlar yaradır. Əsərin dili sadə və çox oxunaqlı olmaqla yanaşı canlı bir üslubda, daha dəqiq desək, tarixi hadisələr haqqında ətraflı şərhlərlə verilir.

---

[1] A Chronicle of Carmelites in Persia: [in 2 vol.] / ed.H.Chick. int. R. Matthee. –London; New-York: İ.B. Tauris, – vol.2. – 2012. – 556 p.

Düzdür, mənbədə bir sıra çatışmayan cəhətlər özünü qabarıq şəkildə göstərir. Məsələn, Azərbaycan əsasən İranın tərkib hissəsi kimi nəzərdən keçirilir, xüsusilə, Azərbaycanın tarixi əraziləri və burada miqrasiya prosesləri zamanı məskunlaşmış qriqoryan erməniləri haqqında olduqca şişirdilmiş məlumatlar verilir, Səfəvilər imperiyası az qala mənbənin bütün səhifələrində İran kimi, hətta əksər hallarda Səfəvilər imperiyasının xristian əhalisi haqqında məlumatlarda ermənilərə geniş yer ayrılır, bəzən isə tarix təhrif olunaraq "Böyük Ermənistan" ifadələri işlədilir. Mövzunun aktuallığını şərtləndirən digər bir mühüm məqam isə Azərbaycan tarixinin XVI-XVIII əsrlərinə dair yazılmış istər ümumtarix səciyyəsi daşıyan əsərlərdə, istərsə də kollektiv monoqrafiyalarda Səfəvi dövlətinin siyasi və sosial həyatı, xarici siyasəti və beynəlxalq ticarət əlaqələri, eləcə də mədəni həyatı xeyli dərəcədə işıqlandırılmış, sanballı tədqiqat əsərləri qələmə alınsa da, Azərbaycanın bəhs olunan dövrü ilə bağlı Qərb mənbələri, xüsusilə, Səfəvilər imperiyası ilə hələ ilkin vaxtlarda geniş iqtisadi, siyasi, mədəni əlaqələr qurmağa çalışan, özlərinə Səfəvi imperiyasının timsalında müttəfiq axtarmağa çalışan Avropa dövlətlərinin xarici siyasi əlaqələrindən bəhs edən mənbələrin bir çoxu hələ bu gün də tədqiqata lazımi səviyyədə cəlb olunmamış, demək olar ki, bu mənbələr Azərbaycan tədqiqatçıları üçün diqqətdən kənarda qalmışdır. Bu baxımdan Şah I Abbasın (1587-1629) hakimiyyəti illərindən etibarən Səfəvilərlər diplomatik əlaqələr qurmağa çalışan – bu dövlətin ərazisində Roma papalarının səlahiyyətli nümayəndələri kimi dini təbliğat fəaliyyətini həyata keçirən karmelit missionerlərinin yazışmaları və xatirələri mühüm əhəmiyyət kəsb edir. Mövzunun aktuallığını şərtləndirən əsas amillərdən biri məhz onun bəhs olunan tariximizlə bağlı xaricdə nəşr olunmuş mənbə əsasında - "Karmelitlərin xronikası" üzrə öyrənilməsi təşkil edir.

Qeyd etmək lazımdır ki, "İtalyan Karmelitlərin xronikası"nda Azərbaycan tarixi məsələləri" mövzusu vətən tarixşünaslığında ayrıca bir mövzu kimi indiyə qədər tədqiqata cəlb olunmamışdır. Bununla yanaşı, Azərbaycan Səfəvilər dövrü ilə bağlı tarixi məsələlər araşdırılarkən istər vətən tarixşünaslığında, istərsə də xarici ölkə

tarixşünaslığında “Karmelit xronikası”na bu və ya digər şəkildə müraciət olunmuşdur.

XVI – XVII əsrlər Azərbaycan tarixi məsələləri, Səfəvi dövlətinin Avropa ölkələri ilə əlaqələrinin, Qərbi Avropa kapitalının Ön Asiyaya axınının başlanğıc dövrünün tədqiqi sahəsində, nəinki Azərbaycan, həmçinin keçmiş sovet tarixşünaslığında ilk dəfə Ə.M.Şahmalıyevin böyük xidməti olmuşdur. Onun Avropa dövlətlərinin XVI əsrdə Yaxın Şərqdə yeritdikləri ticarət siyasətinə həsr olunmuş tədqiqatlarında Azərbaycan tarixi məsələlərinə dair Şərq və Avropa müəlliflərinin məlumatlarının ümumiləşdirilməsi əsasında Şərq və Qərbi Avropa dövlətləri arasında əlaqələrin möhkəmlənməsi prosesində Səfəvi dövlətinin rolu işıqlandırılmış, Qərbin Azərbaycanda həyata keçirdiyi iqtisadi-ticarət fəaliyyətinin xarakteri, mahiyyəti açıqlanmışdır[2].

Vətən tarixşünaslığında problemin araşdırılması ilə bağlı ilk sanballı elmi əsər O.Ə. Əfəndiyev tərəfindən qələmə alınmışdır[3]. O.Ə. Əfəndiyevin Azərbaycan Səfəvi dövlətinin 16-cı əsr tarixinə dair araşdırmaları və Səfəvi dövlətinin meydana gəlməsi məsələsinə həsr etdiyi iki qiymətli monoqrafiyası bu istiqamətdə Azərbaycan tarixşünaslığına böyük bir töhfə vermiş və onu xeyli zənginləşdirmişdir.

XV əsrin II yarısı – XVII əsrin əvvəllərində Azərbaycan, Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa dövlətləri ilə əlaqələrinin öyrənilməsində akademik Y.M. Mahmudov böyük rol oynamışdır. Onun tədqiqatlarının əhəmiyyətli cəhəti ondan ibarətdir ki, qeyd olunan məsələyə nəinki Azərbaycan, hətta dünya tarixşünaslığında ilk dəfə olaraq ayrıca elmi problem kimi yanaşılmışdır. Y. M. Mahmudov istər vətən, istərsə də xarici ölkə tarixçilərinin əsərlərindən, tarixşünaslıq nümunələrindən geniş istifadə edərək, onlara müxtəlif dillərdə olan mənbələrə istinad etməklə tənqidi yanaşaraq Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi

---

[2] Шахмалиев, Э.М. Дипломатические отношения Испании с Сефевидским государством во второй половине XVII веке //– Баку: Учение записки Азербайджанского Университета,1955. №7, – с.117-127.

[3] Əfəndiyev, O.Ə. Azərbaycan Səfəvi dövləti / O.Ə. Əfəndiyev. – Bakı: Şərq-Qərb, –2007.– 344 s.

Avropa ilə əlaqələrinin inkişafını Şah I Abbasın hakimiyyətinin sonunadək təfsilatı ilə izləmiş, mükəmməl tədqiqat işi aparmışdır [4].

XVI əsrin II yarısı – XVII əsrin I yarısında İngiltərənin Şərqdə ticarət-iqtisadi siyasətinin araşdırılmasına B.Ə. Əhmədovun bir neçə müvəffəqiyyətli işi həsr olunmuşdur. Onun araşdırmalarında irəli sürülən mülahizələr və ortaya qoyulan nəticələrdən tədqiqat işimizdə istifadə olunmuşdur [5].

Azərbaycan tarixşünaslığında Səfəvi dövlətinin siyasi, iqtisadi, sosial, mədəni həyatının, ticarət, kənd təsərrüfatı, sənətkarlıq məsələlərinin, xarici və daxili siyasətinin araşdırılması ilə yuxarıda qeyd etdiyimiz müəlliflərdən savayı bir sıra tədqiqatçılar, o cümlədən Ş.F.Fərzəliyev[6] , Ə.Ə. Rəhmani[7], T.H. Nəcəfli[8], X.A.Qambayzadə [9], N.F. Axundova[10], M.Z. Ağalarov[11], R.İ. Dadaşova[12], D.M. Əzimli[13], X.S. Qasımov [14], T.T. Mustafazadə [15] və b. məşğul olmuşlar.

---

[4] Mahmudov, Y.M. Azərbaycan diplomatiyası / Y.M.Mahmudov. – Bakı: Təhsil, –2006. – 416s.

[5] Əhmədov, B.A. XVII əsrin I yarısında İngiltərənin Şərq siyasəti / B.A.Əhmədov. – Bakı: Nafta Press, – 1998. – 234 s.

[6] Fərzəliyev, Ş.F. Azərbaycan XV-XVI əsrlərdə / Ş.F.Fərzəliyev. – Bakı: Elm, –1983. – 152 s.

[7] Рахмани, А.А. Азербайджан в конце XVI в XVII веке / А.А. Рахмани. – Баку, Элм, – 1981. – 240 с.

[8] Nəcəfli, T.H. Səfəvi-Osmanlı münasibətləri (Türkiyə tarixşünaslğında) / T.H. Nəcəfli. – Bakı: Turxan, – 2014.– 516 s.

[9] Камбайзаде, Х.А. Взаимоотношеия государства Сефевидов с западноевропескими странами (конец XVI первая трети XVII вв.): / автореферат кандидатской диссертации по истории) / – Баку, 1991. – 24 с.

[10] Ахундова, Н.Ф. Азербайджанские государсво в XV-XVI вв. в «Кембриджской истории Ирана»: / автореферат диссертации доктора философии по истории) / – Баку, 2013. – 26 с.

[11] Ağalarov, M.Z. XV-XVI əsrlərdə Azərbaycan beynəlxalq münasibətlər sistemində: / tarix üzrə fəlsəfə doktoru dissertasiyası) / – Bakı, 2009. – 210 s.

[12] Dadaşova, R. İ. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda) R.İ. Dadaşova. – Bakı: Nurlan, – 2003. – 440 s.

[13] Əzimli, D.M. Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə ( XV əsrin II yarısı- XVII əsrin I yarısı) / D.M. Əzimli. – Bakı: Turxan, – 2014. – 292 s.

Z.H. Bayramlı və B.Ş Şabiyev tərəfindən yazılmış "Azərbaycan Səfəvi dövləti (XVI-XVII əsrlər)" adlı tədqiqat da Azərbaycan Səfəvi dövlətinin XVI-XVII əsrlər tarixinə həsr olunmuşdur[16].

Azərbaycanın çoxəsrlik tarixi azərbaycanlılarla yanaşı, türk, fars, rus və Avropa tədqiqatçılarının diqqətini cəlb etmiş və bu mövzuya onlarca əsər həsr olunmuşdur. Bu sahədə gərgin və ciddi araşdırmalar aparan məşhur şərqşünas V.V. Bartoldun xüsusi yeri vardır.

V.V. Bartoldun doqquz cilddə toplanmış "Əsərlər"inin II cildinin I hissəsində "Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri" adlanan bölmə, əsasən Azərbaycan tarixinə həsr edilmişdir. Onu da qeyd edək ki, V.V. Bartoldun Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində 1924-cü ilin noyabr və dekabr aylarında "Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri" mövzusunda oxuduğu mühazirələr görkəmli Azərbaycan şərqşünası, akademik Z.M. Bünyadovun diqqətini cəlb etmiş, həmin əsəri doğma dilimizə tərcümə etmişdir[17]. XVI-XVIII əsrlər Azərbaycan tarixi məsələlərinin öyrənilməsində keçmiş SSRİ alimlərinin Azərbaycanın orta əsrlər tarixinə və ümumən İran tarixinə dair tədqiqatları böyük əhəmiyyət kəsb edir. Bunların içərisində V.V.Bartoldla yanaşı, İ.P. Petruşevskinin də xidmətləri xüsusi qeyd edilməlidir [18].

İrandilli mənbələrdən olan Ə.Ə.Vilayətinin "Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi" Səfəvi-Osmanlı və

---

[14] Qasımov, X.S. Orta əsrlərdə Azərbaycan mədəniyyəti (XVI_XVII əsrlər) / X.S.Qasımov. – Bakı: Nurlan, – 2002. – 448s.

[15] Mustafazadə, T.T. XVIII yüzillik- XIX əsrin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri / T.T. Mustafazadə. – Bakı: Elm, – 2002. – 372 s.

[16] Bayramlı, Z.H. Azərbaycan Səfəvi dövləti (XVI- XVII əsrlər) / Z.H. Bayramlı, B.Ş. Şabiyev – Bakı: Elm və Təhsil, − 2016. – 360 s.

[17] Bartold, V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri / V.V.Bartold. – Bakı: Elm, – 1999. – 160 s.

[18] Петрушевский, И.П. Азербайджан в XVI-XVII вв. Сборник статей по истории Азербайджана / – Баку: А.Н А. ССР, – 1949, – с.225-298.

Səfəvi-Avropa münasibətlərinin iqtisadi və siyasi səbəblərini işıqlandırmağa kömək edir[19].

Tədqiqat işində Türkiyə tarixçilərindən Ö. Küpeli[20], Y.Öztuna,[21] F. Sumer[22], İ.H. Uzunçarşılı[23] və digərlərinin araşdırmalarından da müəyyən məsələlərin işıqlandırılmasında istifadə olunmuşdur.

Tədqiq olunan problemin bir çox istiqamətlərinin öyrənilməsində Avropa tarixşünaslığı da mühüm rol oynayır. Bu baxımdan Kembric Universitetinin professoru L.Lokkartın 1958-ci ildə nəşr olunmuş "Səfəvi sülaləsinin tənəzzülü və İranın əfqanlar tərəfindən işğalı" adlı monoqrafiyasında tədqiq etdiyimiz dövrlə bağlı sanballı məlumatlar vardır. [24] Dissertasiya tədqiqatının ayrı-ayrı məsələlərinin araşdırılmasında digər Avropa tarixçilərinə G.N.Curzon[25], R.M. Savory[26] və b. istinad edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin əsas obyekti iki cilddən ibarət olan "Karmelitlərin xronikası" adlı xatirə yazışma tipli əsərdir. Əsli italyanca olan bu əsər ingilis dilində ilk dəfə 1939-cu ildə nəşr olunmuşdur. Yenidən nəşri isə 2012-ci ilə aiddir. Karmelitlərin Azərbaycan Səfəvi dövləti ilə Avropa dövlətləri arasında ittifaq yaratmaq cəhdləri, Səfəvi imperiyasında nüfuz uğrunda Avropa dövlətlərinin mübarizəsində anti Osmanlı koalisiyası amili, imperiya ərzisindəki xristian icmaları, Avropa

---

[19] Vilayəti, Ə.Ə. Şah İsmayl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi / Ə.Ə. Vilayəti. –Bakı: Əlhuda, – 1998. – 421 s.

[20] Küpeli, Ö. Safevi –Osmanlı münasibetleri / Ö. Küpeli. – İstanbul: Yedditepe Yayın, – 2014. – 336 s.

[21] Öztuna, T.Y. Başlanğıcından zamanımıza kadar Türkiye tarihi: [12 cilddə ] / T.Y. Öztuna. –Ankara: Hayat Yayınları, – c.5. – 1965. – 287 s.

[22] Sümer, F. Safevi tarihi ilə ilgili incelemeler. I ve II Abbas devirleri // – İstanbul: Türk Dünyası Araşdırmaları, – 1988. № 69, – s.10-32.

[23] Uzunçarşılı, İ.H. Osmanlı tarihi: [4 cilddə ] / İ.H. Uzunçarşılı. – Ankara: Türk Tarihi Kurumu Basımevi, – c. 2. – 1988. – 808 s.

[24] Lochart, L. The fall of Safavi dynasty and the Afghan occupation of Persia/ L.Lochart. – Cambridge: Cambridge University, – 1958. – 583 p.

[25] Curzon, G.N. Persia and Persian question: [in 2 vol.] / G.N.Curzon. – London; New-York: Longmans, Green & co, – vol. 2. – 1892. – 600 p.

[26] Savory, R.M. İran under the Safavids / R.M. Savory. – London: Cambridge University Press, – 1980. – 277p.

missionerlərinin dini təbliğatı, Səfəvi dövlətinin Osmanlı imperiyası ilə münasibətlərində Avropa dövlətlərinin rolu, Avropa dövlətlərinin İran körfəzində ticarət üstünlüyü uğrunda mübarizəsi, Səfəvi dövləti ərazisində yaşayan xristianlar arasında Papalığın məqsədli iş aparması və əsərin qüsurlu tərəflərinin üzə çıxarılması tədqiqat işinin əsas predmetidir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işi yazılarkən qarşıya qoyulan əsas məqsəd XVI-XVIII əsrlər Azərbaycan tarixi məsələlərinin "Karmelitlərin xronikası" əsasında araşdırılmasıdır. Adı çəkilən mənbə əsasında Azərbaycanın bəhs olunan dövrünün dünya sivilizasiya tarixində oynadığı rol və tutduğu mövqeyinin müəyyən edilməsi də tədqiqatın əsas məqsədlərindən birini təşkil edir. Tədqiqat işi yazılarkən konkret olaraq qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

– "Karmelitlərin xronikası" əsərinin araşdırmaq və Azərbaycan tarixi üçün əhəmiyyətini müəyyən etmək;
– Azərbaycanın son orta əsrlər tarixi xarici ölkələrin mənbələrində bir çox hallarda düzgün işıqlandırılmır, bəzən isə qəsdən saxtalaşdırılır. Bu isə tariximiz barədə istər yerli, istərsə də xarici ölkələrdə yanlış təsəvvürlərin yaradılmasına səbəb olur, xalqımızın əldə etdiyi siyasi, mədəni və b. nailiyyətlər başqa xalqların adına yazılır, orta əsrlərdə yaradılmış Azərbaycan dövlətləri isə "İran dövlətləri" kimi qələmə verilir. Belə əsərlərin tendensiyalılığını üzə çıxarmaq və tənqidi təhlilini vermək;
– Şah Abbasın hakimiyyəti illərindən etibarən Səfəvilərlə diplomatik əlaqələr qurmağa çalışan – bu dövlətin ərazisində Roma papalarının səlahiyyətli nümayəndələri kimi dini təbliğat fəaliyyətini həyata keçirən karmelit missionerlərinin yazışmaları və xatirələrinin əhəmiyyətini və qüsurlu cəhətlərini müəyyən etmək;
– Papalar tərəfindən təlimatlandırılan və Səfəvi sarayına göndərilən Karmelit rahiblərinin Səfəvi imperiyası ilə diplomatik münasibətlərin qurulmasında mühüm rol oynamasını, bu əlaqələrin arxasında isə bir sıra gizli məqamların – imperiya xalqları arasında dini təbliğat aparmaq,

Osmanlı imperiyasına qarşı müttəfiq axtarmaq cəhdlərini üzə çıxarmaq;

– Karmelitlərin Şah I Abbasın ölkədə apardığı uğurlu daxili və xarici siyasətini, xüsusilə əvvəlki dövrdə itirilmiş ərazilərin Osmanlı türklərindən geri alınmasını dərindən öyrənərək mütəmadi olaraq Avropa dövlətlərinə çatdırmalarına xüsusi diqqət yetirmək;

– Səfəvi imperiyası ilə Avropa dövlətləri arasında siyasi və diplomatik münasibətləri, bu yaxınlaşmanı şərtləndirən amilləri təhlil etmək;

– Bəhs olunan mənbə üzrə Səfəvi imperiyasının yaranmasını, Yaxın və Orta Şərqin, o cümlədən də dünyanın tarixi taleyində yerinə qiymət verilməsini müəyyənləşdirmək;

– Osmanlı imperiyasına qarşı müharibə aparan Qərb dövlətlərinin geniş hərbi-siyasi planlarının olduğunu üzə çıxarmaq;

– Qəsbkarlıq xarakteri daşıyan bu planların, bir tərəfdən, qüvvətli Osmanlı imperiyasının Avropada irəliləməsinin qarşısını almağa, digər tərəfdən Səfəvilər imperiyasını öz təsir dairələrinə salmağa, burada ucuz xammal mənbələri və sərfəli satış bazarları ələ keçirməyə yönəldiyini, iki qüdrətli imperiyanı bir-birinin əli ilə zəiflədilməsinə çalışıldığını göstərmək;

– Avropa kapitalının Səfəvi dövləti hüdudlarındakı bazara çıxışı uğrunda XVI əsrdə başlanmış mübarizəsinin XVII əsrin əvvəllərində daha da gücləndiyini, Şərq bazarında hökmranlıq uğrunda Hollandiya, Venesiya, Portuqaliya və İngiltərə kapitalları arasında mübarizənin getdiyini göstərmək;

– Səfəvi imperiyasının müsəlman əhalisi arasında dini təbliğat baxımından elə bir uğur qazana bilməyən karmelitlərin əsas diqqətinin imperiyanın xristian əhalisinə yönəltdiklərini göstərmək;

– Səfəvi imperiyasının xristian əhalisi haqqında məlumat verərkən qriqoryan ermənilər üzərində xüsusi dayanmaları, qriqoriyan ermənilərlə bağlı məlumatlar verilərkən isə Azərbaycan tarixinin saxtalaşdırılması faktlarının olduğunu göstərmək.

**Tədqiqat metodları**. Dissertasiyanın tədqiqat metodlarının əsasını obyektivlik və tarixilik prinsipləri, bütün mənbə və məlumatların kompleks şəkildə və tənqidi təhlil əsasında müqayisəli təhlil yolu ilə araşdırılmasına söykənən obyektiv tarixi tədqiqat metodu təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat ilə əlaqədar müdafiəyə çıxarılan müddəalar aşağıdakılardır:

Şərqə müxtəlif məqsədlərlə göndərilmiş Avropa missionerlərinin qeydlərindən ibarət salnamə xarakterli "Karmelitlərin xronikası" Səfəvi imperiyasının, o cümlədən Azərbaycanın XVI-XVIII əsrlər tarixini öyrənmək üçün qiymətli mənbədir.

Mənbədə verilən məlumatlar onu deməyə əsas verir ki, Şah I Abbasın hakimiyyəti illərindən başlayaraq, Qərb dövlətləri və Roma papalarının Səfəvi dövləti ilə siyasi-diplomatik əlaqələr qurmaqda məqsədləri Osmanlının Avropada irəliləməsinin qarşısını almaq, Səfəvilər imperiyasını öz təsir dairələrinə salmaq, burada ucuz xammal mənbələri və sərfəli satış bazarlarını ələ keçirmək idi.

– Bəzilərinin ilk dəfə məhz bu mənbədə əksini tapmış Roma papalarının və Avropa diplomatlarının Səfəvi hökmdarları ilə yazışmalarının mətni göstərir ki, incə və ehtiyatlı siyasət yürüdən Papa və ardıcılları Osmanlı təhlükəsinə qarşı Səfəvi imperiyası timsalında özlərinə dayaq axtarırdılar.
– Xronikada Səfəvi hökmdarlarının ölkənin xristian icmalarına və Avropa missionerlərinə münasibətdə kifayət qədər tolerant siyasət apardıqları əksini tapmışdır.Bu da onu sübut edir ki, Azərbaycanda dini dözümlülüyün kökləri qədimdir.
– Həmçinin mənbədə missionerlərin Səfəvi hökmdarlarının idarəetmə sisteminə, daxili və xarici siyasətlərinə verdikləri qiymət daha çox imperiyanın xristian icmalarının, Səfəvi - Qərb və Səfəvi - Osmanlı münasibətlərinin vəziyyətindən asılı idi.
– "Karmelitlərin xronikası"nda Azərbaycan tarixi məsələləri bir çox hallarda düzgün işıqlandırılmır və təhrif olunur.
– Şah I Abbasın dövründə Azərbaycanın Avropa dövlətləri ilə yaradılmış qarşılıqlı əlaqələri Azərbaycan Respublikasının

xarici siyasətində mühüm tarixi təcrübə kimi istifadə oluna bilər.

– Həmçinin 30 ilə yaxın davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində əksər Avropa dövlətlərinin yeritdiyi qərəzli mövqe XVII əsrdə papa başda olmaqla xristian dövlətlərinin Səfəvi imperiyasına qarşı siyasətində əksini tapmışdır.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiya Azərbaycan tarixinin XVI əsrin sonu - XVIII əsrin əvvəlləri məsələlərini "Karmelitlərin xronikası" əsasında kompleks halında araşdıran ilk tədqiqat işidir. Dissertasiyada müxtəlif vaxtlarda yazılmış əsərlər də diqqətlə öyrənilərək təhlil edilmiş və elmi yeniliklər aşağıdakı şəkildə qruplaşdırılmışdır:

– Azərbaycanın XVI-XVIII əsrlər tarixi ilk dəfə olaraq "Karmelitlərin xronikası" mənbəsi üzrə tədqiq edilir;

– Azərbaycan Səfəvilər imperiyasının daxili və xarici siyasəti, regiondakı mövqeyi, Avropa və Osmanlı imperiyası ilə münasibətləri haqqında "Karmelitlərin xronikası"nda verilən məlumatların bir çox hallarda Azərbaycan tarixşünaslığı ilə ziddiyyət təşkil etdiyi göstərilmişdir;

– "Karmelitlərin xronikası"nda Səfəvi imperiyası ilə Qərb dövlətləri arasında siyasi və diplomatik münasibətlərin şərhinə, bu yaxınlaşmanı şərtləndirən amillərə nəzər salınmış, bəhs olunan dövr Azərbaycan tarixinin bu və ya digər səbəblərdən saxtalaşdırılması üzə çıxarılmışdır;

– "Karmelitlərin xronikası"nın tədqiqata cəlb edilməsi sayəsində mənbədə bir sıra qüsurlu cəhətlər - məsələn, Azərbaycanın İranın tərkib hissəsi kimi nəzərdən keçirilməsi, xüsusilə Azərbaycanın tarixi əraziləri və burada miqrasiya prosesləri zamanı məskunlaşmış qriqoryan erməniləri haqqında olduqca saxtalaşdırılmış məlumatlar verilməsi, xüsusilə Səfəvilər imperiyasının az qala mənbənin bütün səhifələrində İran kimi təqdim olunması, hətta əksər hallarda Səfəvilər imperiyasının xristian əhalisi haqqında məlumatlarda ermənilərə geniş yer

verilməsi, bəzən isə tarix təhrif olunaraq “Böyük Ermənistan” ifadəsini də işlədilməsi müəyyənləşdirilmişdir;

- Mənbədə Azərbaycan məfhumu, coğrafi mövqeyi yada düşmür və yaxud diqqətdən kənarda qalır. Bu da ondan irəli gəlir ki, xronikanın müəllifləri İran fars millətçilərinin ruhuna xidmət edir və yaxud bu amilə söykənmişlər;
- Papanın nümayəndələri Səfəvi imperiyasında yaşayan ermənilərlə bağlı daha çox maraqlanmağa başlamış, hətta Culfa ermənilərinin statistik təhlillərini belə aparmağı unutmamışlar;
- Roma papalarının və Avropa səfirlərinin Səfəvi hökmdarları ilə yazışmalarında incə və ehtiyatlı siyasət yürüdən Papa və ardıcıllarının “türk təhlükəsi”ni həzm edə bilmədikləri, Səfəvi imperiyası timsalında özlərinə dayaq axtardıqları, Osmanlı dövlətini qəddar və tiraniya rejimi kimi qələmə verdikləri, özlərinin yürütdükləri xristian missiyasını isə ümumi siyasətin fonunda “unutduqları” geniş təhlil və şərh edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqat işində toplanmış çoxsaylı ilk mənbə və elmi ədəbiyyat məlumatları, əldə edilmiş nəticələr və irəli sürülmüş təkliflər, problemə yeni yanaşma prizmasının formalaşması üçün böyük əhəmiyyət daşıyır. Tədqiq olunan dissertasiya işi Azərbaycanın XVI-XVIII əsr tarixi ilə bağlı ümumiləşdirilmiş əsərlərin yazılmasında, dərs vəsaitlərinin tərtib olunmasında, mühazirələrin və xüsusi nəşrlərin hazırlanmasında, tələbələrin kurs və buraxılış, magistrantların dissertasiya işlərinin yazılmasında istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun “Azərbaycanın orta əsrlər tarixi” şöbəsində, 16 aprel 2018-ci il tarixli iclasında müzakirə edilmiş və müdafiəyə buraxılmaq üçün məsləhət görülmüşdür. Dissertasiya işinin əsas müddəaları dissertantın Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlərdə çap olunmuş məqalələrində, beynəlxalq elmi konfranslarda etdiyi məruzələrdə öz əksini tapmışdır. Ümumilikdə, müxtəlif jurnallar və konfrans materiallarında mövzu ilə birbaşa əlaqədar 13 məqalə və tezis nəşr olunmuşdur. Onlardan 5-i Beynəlxalq Elmi

konfransın materialıdır (Biri Rusiyada keçirilməklə). Səkkiz məqalə müxtəlif elmi jurnallarda nəşr olunmuşdur (Onlardan biri Ukrayna, digəri Türkiyədə nəşr olunmaqla) .

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və həcmi.** Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları"na uyğun şəkildə hazırlanmışdır. Giriş, 3 fəsil və nəticə daxil olmaqla dissertasiyanın ümumi həcmi 282 000 işarədən ibarətdir.

Giriş: işarə sayı – 26 000, I fəsil: işarə sayı – 88 000, II fəsil: işarə sayı – 84 000, III fəsil: işarə sayı – 72 000, Nəticə: işarə sayı – 12 000

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır. Tədqiqatın öyrənilmə səviyyəsi açıqlanır, məqsəd və vəzifələri müəyyən olunur, elmi yeniliyi əsaslandırılır, metodoloji əsasları, nəzəri və praktiki əhəmiyyəti göstərilir, həmçinin dissertasiyanın aprobasiyası və quruluşu haqqında məlumat verilir.

Dissertasiya işinin birinci fəsli **"XVII əsrin I rübündə Səfəvi imperiyası ilə Avropa dövlətləri arasında ittifaq cəhdləri və karmelit missionerləri"** adlanır və iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə Azərbaycan - Avropa əlaqələrinin Ağqoyunlu dövləti ilə münasibətlərini və Ağqoyunlu dövlətinin varisi olan Səfəvilər dövləti ilə əlaqələrinin şərtləndirən amillər təhlil olunur. **"Səfəvi imperiyası ilə Avropa dövlətləri arasında diplomatik - siyasi münasibətlərin yaxınlaşmasını şərtləndirən amillər"** adlanan bu yarımfəsildə Ağqoyunlu və Səfəvilər dövründə Avropa ölkələri ilə yaranan iqtisadi, siyasi əlaqələrin inkişafında Osmanlı amili, ipək ticarətinin mühüm rol oynadığı faktlarla göstərilmişdir.

XV əsrin II yarısında Şərq istiqamətində Osmanlı işğallarının güclənməsi şəraitində Ağqoyunlu- Trabzon münasibətləri daha da möhkəmləndi. Trabzonun fəthi nəticəsində Ağqoyunlu dövləti nəinki öz müttəfiqini, habelə Qara dənizə olan yeganə çıxış yolunu itirdi.

Qaraman hadisələri Ağqoyunlu-Osmanlı ziddiyyətlərini son həddə çatdırdı. Ağqoyunlu-Osmanlı münasibətlərinin II dövründə Uzun Həsən Osmanlılara qarşı hərbi ittifaq yaradılmasının əsas təşkilatçısı idi [27]. II Sultan Məhəmmədlə etdiyi müharibədən əvvəl Uzun Həsənin təşəbbüsü ilə Osmanlılar əleyhinə bir ittifaq yaradılmışdı. Lakin Osmanlılarla olan müharibə də müttəfiqlərin ağqoyunlulara köməyi dəyməmişdi [28].

Ağqoyunlu dövlətinin süqutundan sonra Avropa dövlətləri Osmanlı təhlükəsinə qarşı Səfəvi dövləti timsalında yeni "müttəfiq" tapmış oldular. Lakin bu yaxınlaşmanın gedişatını izlədikcə görürük ki, məqsəd təkcə "türk təhlükəsi" problemi deyil, həmçinin müsəlman dövlətlərini zəiflətmək, Avropadan Asiyaya qədər uzanan ticarət yollarında üstünlüyü ələ keçirmək, xristianlığı yaymaq idi. Şah I İsmayıl da sələfi Uzun Həsən kimi Osmanlıya qarşı Avropa dövlətləri ilə ittifaqa cəhd etdi. Səfəvilərin xarici siyasətində Osmanlı ilə münasibətlər əsas yer tuturdu. Çaldıran məğlubiyyətindən sonra da I İsmayıl Osmanlı Sultanının Səfəvilərə qarşı yürüşə hazırlaşması barədə aldığı məlumatlara görə Avropa dövlətləri ilə diplomatik fəaliyyətini gücləndirdi[29] .

I Şah İsmayılın ölümü və hakimiyyətə azyaşlı oğlu Təhmasibin (1524-1576) keçməsi ilə Səfəvi-Osmanlı münasibətlərindəki gərginlik davam etdi. I Təhmasibin dövründə də ənənəvi Azərbaycan –Avropa münasibətləri inkişaf edirdi. Avropa dövlətləri I Təhmasibin dövründə də Osmanlıya qarşı ittifaq yaratmağa cəhd etsələrdə şah Amasya sülhünün şərtlərinə sadiq qalmışdı.

Lakin xaraktercə zəif olan Məhəmməd Mirzənin (1578-1587) dövründə yenidən Səfəvi-Osmanlı müharibəsi baş verdi (1578-1590). Sultan II İsmayılın ölümü və hakimiyyətə gözləri görməyən qardaşı Məhəmməd Xudabəndənin gəldiyini eşidərək fürsəti əldən

---

[27] Nəcəfli, T.H. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında / T.H. Nəcəfli. – Bakı: Çaşıoğlu, − 2000. – s. 50-51.

[28] Fərzəliyev, Ş.F. Azərbaycan XV-XVI əsrlərdə / Ş.F. Fərzəliyev. − Bakı: Elm , − 1983. – s. 73.

[29] Ağalarov, M.Z. XV-XVII əsrlərdə Azərbaycan və beynəlxalq münasibətlər sistemi // − Bakı: Strateji təhlil, − 2015. №3 (14), − s. 47.

verməyərək dərhal Səfəvilərə qarşı müharibəyə başlamışdı [30]. Səfəvi Şahı Osmanlıya qarşı Avropa dövlətləri ilə danışıqlar aparsada ittifaq baş tutmadı[31]. Nəticədə Səfəvilər ağır məğlubiyyətə uğradılar [32]. 1590-cı il martın 21-də bağlanmış İstanbul sülh müqaviləsinə görə, Gürcüstan, Qərbi Azərbaycan, Şərqi Anadolu, Kirmanşah, Luristan, Xuzistan və b.ərazilərlə yanaşı Şərqi Azərbaycan (Ərdəbil və Talış mahalları istisna edilməklə) da Osmanlı imperiyasına qatıldı[33].

1587-ci ildə Şah I Abbasın hakimiyyətə gəlişi ilə Azərbaycan və Avropa əlaqələri yeni inkişaf mərhələsinə qədəm qoydu. Şah Abbasın hakimiyyətə gəldiyi şəraitlə bağlı "Karmelitlərin xronikası"nda hadisələr belə təsvir edilir: *"Türk qoşunları yenidən Azərbaycanı işğal edərək Təbrizi tutdu: Şahın 3 oğlundan ən böyüyü Həmzə Mirzə qüvvələrini toplayaraq türkləri sülh bağlamağa məcbur etdi. Şərqdə, Xorasanda Şahın gənc oğlu Abbas hakimiyyəti öz üzərinə götürdü. Həmzə Mirzə qiyamçı dəstələri darmadağın etdi, lakin qəfildən öldürüldü. Həmzə Mirzənin ölümü haqqında xəbərlərin Xorasana çatması ilə Abbasın ən yaxşı cangüdənlərindən olan Ustaclı Qızılbaş rəhbəri Mürşüdquli xan dərhal gənc şahzadəni Qəzvinə apardı və oranı işğal etdi. Bu hadisə çox rəğbətlə qarşılandı. Bu hadisədən iki və ya üç il əvvəl Abbas Nişapurda zadəganlar tərəfindən hökmdar elan edildi"*[34] .

Roma Papası VIII Klementin 1592-ci il tarixli Şah Abbasa göndərdiyi məktubundan isə Şah Abbasın gənc sərkərdə kimi taxta çıxması, türklərə qarşı cəsur döyüşçü kimi mübarizə aparması sadalanaraq, onun türk sultanlarına qarşı Xristian İttifaqına qoşulmağa dəvət edilməsi məlum olur. Vatikan Arxivində saxlanılan

---

[30] Peçevi, İ. E. Peçevi tarihi ( Hazırlayan prof. Bekir S.B.): [2 cilddə] / İ. E. Peçevi. – Ankara: Kültür Bakanlığı Yayınları, − c.2. – 1992. − s. 32.

[31] Mahmudov, Y.M. Azərbaycan diplomatiyası. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV- XVII yüzilliklər) / − Bakı: Azərbaycan Universiteti, − 1996. − s. 200.

[32] Mahmudov, Y.M. Səfəvi və Avropa əlaqələri // Kommunist. − 1991, 16 fevral. – s.4.

[33] Mahmudov, Y.M. Azərbaycan diplomatiyası / Y.M. Mahmudov. – Bakı: Təhsil, − 2006. – s. 268.

[34] A Chronicle of Carmelits in Persia. [in 2 vol.] / ed. H.Chick. intr. R. Matthee. – London; New York: I. B.Tauris, − vol. 1. – 2012. – p. 66.

30 sentyabr 1592-ci il tarixli məktubda Papa VIII Klement Şah Abbasa yazırdı: *"Şöhrətli və İranlıların qüdrətli hökmdarı Abbası ən səmimi arzularla salamlayıram. Qarşılıqlı əlaqələrimizin olmamasına baxmayaraq, Sizin şöhrətiniz və isminiz çox yüksəklərdə dayanır və o dərəcədə yüksəkdir ki, böyük əksəriyyət tərəfindən qəbul olunur, çox böyük uğurlar qazanmışdır. Lakin indiyədək bizim qədər sizin də düşməniniz olan türk qəddarlığına qarşı mübarizədə bütün arzularınızı gerçəkləşdirmək imkanlarınızı biz geniş mənada qiymətləndiririk. Hətta heç bir şeyə sahib omayan insanlar belə ən yaxşı arzu kimi özlərinin qalibiyyətinə ümid edir...O bizə nə qədər əzablar yaşadıb: Ərəblər, yunanlar, almanlar, italyanlar üzərində nə qədər qırğınlar törədib?...Müqavilələr, hətta barışıqlar yaxşı görünsə belə, o, qonşularına hər zaman təhlükə ola bilər... Beləliklə biz düşünürük ki, belə planlar ümumi məqsədlərə xidmət etməlidir. Gəlin, bu əməkdaşlıqda birgə səylərimizi birləşdirək və Xristian dünyasının digər knyazlıqları ilə birlikdə ittifaq yaradaq və birgə qüvvə və imkanlarımızla ona hücum edək...Amma şəxsən Sizin üçün, sizin tərəfinizdən ona hücum etmək üçün Sizə böyük kömək lazımdır. İndi deyilir ki, odlu silahlarına, maddi imkanlarına görə o sizdən çox güclüdür. Biz bu kimi çətinliklər qarşısında (hərb imkanları) Sizin əziyyət çəkməyinizə imkan verməyəcəyik... Biz sizə bu kimi planlarımızı açıqlamaq və belə böyük imkanları dəyərləndirməyi istəyirik. Qoy Ulu Yaradan həm bu məsələdə və həm də Sizin səltənətinizin firavan və ədalətli olması haqqında düşüncə və mülahizələrinizə yardımçı olsun. Bizim iradəmizlə bu məktubun üzü çıxarılmalı, ikinci nüsxəsi etibarlı şəxs tərəfindən həm Sizə çatdırılacaq və oradakı bəzi detallar Sizə izah olunacaqdır. Tərəfinizdən onun sözlərinə inanmanızı arzu edirik. 1592-ci ilin sentyabrın sonuncu günündə verilmişdir"*[35]. Lakin Şah Abbas da sələfləri kimi Avropadan istənilən dəstəyi ala bilmədi.

Fəslin ikinci yarımfəsli **"Avropa dövlətləri və Səfəvi imperiyası arasında diplomatik münasibətlərin inkişafında Karmelit missionerlərinin yeri və rolu"** adlanır. Yarımfəsildə

[35] A Chronicle of Carmelits in Persia. [in 2 vol.] / ed. H. Chick. intr. R. Matthee. – London; New York: I. B.Tauris, – vol. 1. – 2012. – p . 66.

Avropa və Səfəvi əlaqələrində Karmelitlərin rolu araşdırılır. Missionerlərin məqsədlərindən biri də Səfəvi dövləti ərazisindəki xristianların katolikləşməsi və papaya tabe edilməsi idi. Bu məqsədlə Səfəvi sarayına göndərilən Karmelit ordenin nümayəndələri I Şah Abbasdan ilk vaxtlar müxtəlif imtiyazlar əldə etməyə çalışır, kilsələr tikir, xristianlıq təbliğ olunurdu.

Dissertasiya işinin ikinci fəsli **"XVII əsrin 30-60-cı illərində Səfəvi imperiyasının daxili və beynəlxalq siyasi vəziyyəti karmelitlərin xronikasında"** adlanır. Fəsil üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **"Daxili siyasi vəziyyət"** adlanır.Yarımfəsildə Şah Səfi və Şah II Abbasın hakimiyyətə gəlməsi, daxili və xarici siyasi vəziyyətləri, Osmanlı və Avropa ilə münasibətləri araşdırılmışdır.

L.Lokkartın fikrincə, Şah Səfi çox qəddar, zalım və qaniçən hökmdar olmuşdur[36]. O, öz hakimiyyəti illərində bir sıra görkəmli hərbi xadimləri fiziki cəhətdən məhv etmişdi. Hərçənd ki, A.A.Bakıxanov Şah Səfini "cəsarətli və türklərə qarşı müharibədə ağıl-dərrakəsi ilə seçilən" şəxs kimi xarakterizə edir. A.A.Bakıxanov yazır ki, O, Osmanlı qoşunu ilə qalibiyyətli müharibələr etdi. Sultan Murad xanın aldığı İrəvan şəhərini bir neçə aydan sonra, hicri 1048-ci ildə (1639-cu ildə) fəth etdi [37]. L.Lokkart Şah Səfinin ümumən qəddar olduğu halda, xristianlara qarşı xoş rəftar və tolerant olmasını xüsusi vurğulayır[38].

"Karmelitlərin xronikası"ndan məlum olur ki, Şah Səfinin hakimiyyətinin ilk illərində Səfəvi imperiyasında daxili ictimai-siyasi vəziyyət elə də ürəkaçan deyildi. Bir tərəfdən yeni hakimiyyətə qarşı ölkənin müxtəlif əyalətlərində üsyanlar baş qaldırır, digər tərəfdən, əvvəlki bəhslərdə də qeyd etdiyimiz kimi, "Osmanlı təhlükəsi" qalırdı. Ümumiyyətlə, I Abbasın ölümü Osmanlı sarayında rahatlıq yaratmış, Osmanlının Bağdadı geri almaq üçün əməliyyatlara

---

[36] Lockart, L. The fall of Safavi dynasty and the Afghan occupation of Persia / L.Lochart. Cambridge: Cambridge University press, − 1958. – p. 27.
[37] Bakıxanov A.A. Gülüstani-İrəm / A.A. Bakıxanov . Bakı: Minarə, − 2000. − s. 144.
[38] Lochart, L. The fall of Safavi dynasty and the Afghan occupation of Persia / Cambridge: Cambridge University press, − 1958. − p. 27.

başlamasına təkan vermişdi[39]. 1638-ci ildə Bağdad Osmanlı tərəfindən tutuldu. Osmanlıda baş qaldırmış iğtişaşlar Osmanlı sultanını hərbi əməliyyatları dayandırmağa və sülh bağlamağa məcbur etdi. 1639-cu il mayın 17-də Səfəvilərlə Osmanlılar arasında sülh bağlandı [40] .

1642-ci ildə Şah Səfinin ölümündən sonra hakimiyyətə oğlu II Abbas gəlir. Əhali onu İranda bütün dövrlərdə hakimiyyətdə olmuş padşahlarının görkəmlisi və ədalətlisi kimi tanıyırdı. Abbas, adını daşıdığı böyük babası kimi bütün dinlərə münasibətdə dözümlülük nümayiş etdirirdi. Ancaq xristianlara qarşı xüsusi, müsbət mənada fərqli münasibət bəsləyirdi.[41]

Fəslin ikinci yarımfəsli **"Səfəvi imperiyasında nüfuz uğrunda Avropa dövlətlərinin mübarizəsində anti-Osmanlı koalisiyası amili"** adlanır. Aparılan araşdırmalar göstərir ki, Avropa kapitalının Səfəvi dövləti hüdudlarındakı bazara çıxışı uğrunda XVI əsrdə başlanmış mübarizə XVII əsrin əvvəllərində daha da güclənir. Şərq bazarında hökmranlıq uğrunda Hollandiya, Venesiya, Portuqaliya və İngiltərə kapitalları arasında mübarizənin gedişində Venesiya kapitalı arxa plana keçir

Fəslin üçüncü yarımfəsli **"Səfəvi imperiyasında dini-mənəvi həyat və xristian icmaları"** adlanır**.** Şah Səfinin hakimiyyəti illərində xristianlara qarşı münasibətdən bəhs edən "Karmelit xronikası" yazır ki, İran şahı sələflərindən fərqli olaraq xristianlarla yaxşı davranır və heç bir dini ayrı-seçkilik aparmır. Keşiş Epipaniusun Romaya göndərdiyi 25 dekabr 1631-ci il tarixli məlumatında deyilirdi: "*Xristianlara qarşı münasibət bizi çox sevindirir. Bu, yeni şah hakimiyyətinin dinə münasibətində də özünü göstərirdi."*[42] .

---

[39] Saray, M. Türk İran ilişkileri / M. Saray. – Ankara: ATAM Yayınları, − 2006. – s. 44.

[40] Küpeli, Ö. Safevi-Osmanlı münasibetleri / Ö. Küpeli. – İstanbul: Yedditepe Yayınları, − 2014. − s. 274.

[41] Malcolm, J. The history of Persia, from the earlist period to the present time: [in 2 vol.] / J. Malcolm. – London: J. Murray Albemarle, − vol. 1. – 1815. – p. 583.

[42] A Chronicle of Carmelits in Persia. [in 2 vol.] / ed. H.Chick. intr. R. Matthee. – London; New York: I. B.Tauris, − vol. 1. – 2012. – p . 315.

Dissertasiya işinin üçüncü fəsli **«XVII əsrin II yarısı-XVIII əsrin əvvəllərində Səfəvi imperiyasının daxili və xarici-siyasi vəziyyəti Karmelitlərin xronikasında»** adlanır. Bu fəsildə Şah Süleyman və Şah Hüseynin dövründə imperiyanın daxili və xarci siyasəti araşdırılmışdır. Fəslin ilk yarımfəsli **"Daxili və siyasi vəziyyət"** adlanır. XVII əsrin II yarısında Səfəvi imperiyasının daxili ictimai-siyasi vəziyyətindən bəhs edən "Karmelitlərin xronikası" daha çox hakimiyyətdaxili çəkişmələrə, taxta yiyələnmiş Səfəvi hökmdarları üzərində xacələrin böyük təsirlərinin olmasını diqqət mərkəzində saxlamışdır.

Bu fəslin ikinci yarımfəsli **"Osmanlı imperiyasına qarşı Avropa dövlətlərinin Səfəvi imperiyası ilə koalisiya cəhdlərinin yenidən fəallaşması"** adlanır. XVII əsrin II yarısında Osmanlı imperiyasının Avropada zəfər yürüşləri özlərinin təbirincə desək, "xristian dövlətlərini təhdid edən başlıca məsələ" olaraq qalırdı. Karmelitlərin 1685-ci ildə etdikləri qeyddə bu barədə deyilir: *"Bir çox xristian dövlətlərinin səfirləri şahın hüzuruna gələrək, onu türklərə qarşı müharibə etməyə ruhlandırırlar, lakin nə fayda: bəzən səfirlərə qarşı o öz hiddətini belə gizlətmir, xoşuna gəlmədiyini açıqca biruzə verirdi. Belə ki, onu (Şah Süleymanı – S.M.) dünyada şərab və qadınlardan başqa heç nə maraqlandırmırdı. Bura xəbər çatıb ki, imperiya qüvvələri Budapeşt şəhərini ələ keçirib, lakin türklər bunu inkar edir, onlar deyir ki, şəhər divarları yanında imperator ordusunu məğlub ediblər"* [43].

Əsərdə Şah Sultan Hüseynin hakimiyyətinin sonuna yaxın Səfəvi imperiyasında siyasi vəziyyətin kəskinləşməsi, daxili çəkişmələrin böhran həddinə çatması, xarici müdaxilə də işıqlandırılmışdır.

Üçüncü fəslin üçüncü yarımfəsli **"Səfəvi imperiyasının xristian əhalisi arasında Avropalı missionerlərin dini təbliğatı"** adlanır. Müsəlmanlar arasında elə bir uğur qazana bilməyən karmelitlər əvvəlki Səfəvi hökmdarlarının dövründə olduğu kimi, yenə də əsas diqqəti imperiyanın xristian əhalisinə

[43] A Chronicle of Carmelits in Persia. [in 2 vol.] / ed. H. Chick. intr. R. Matthee. – London; New York: I. B.Tauris, – vol. 1. – 2012. – p . 421.

yönəldirdilər.*"Böyük Ermənistan" ən möhtəşəm dövründə şimaldan Kür çayı, şərqdən Xəzər dənizi, cənubdan Mesopotomiya, qərbdən isə Fərat çayı onu Kiçik Ermənistanla ayırırdı. Makedoniyalı İsgəndər öz hərbi yürüşləri zamanı oranı işğal etmişdi. Antiox tərəfindən ora hökmdar təyin olunmuş Artaksias deyilənə görə e.ə.190-cı ildə şimali Ermənistanın paytaxtı Artaxtanın əsasını qoymuşdur".* [44] Bu, tarixin başdan-başa saxtalaşdırılmasıdır və kitabın obyektivliyini, mötəbərliyini şübhə altına salır. Mənbələr sübut edir ki, ermənilər Cənubi Qafqaza gəlmədirlər, aborigen deyillər, çarizm tərəfindən köçürülmüşlər. Buna dair yüzlərlə mötəbər mənbə vardır. Görkəmli rus şərqşünası İ.M.Dyakonov yazır ki, *"müasir ermənilərin əcdadları olduğu güman edilən köçəri qəbilələr - haylar eramızdan əvvəl təxminən XII əsrdə Balkan yarımadasından hərəkətə başlayıb Kiçik Asiyaya keçmiş və Yuxarı Fərat vadisində (Van gölünə doğru ərazilərdə) məskən salmışlar* [45] .

Dissertasiyanın **"Nəticə"** hissəsində aparılan elmi araşdırmalara, əldə edilmiş elmi nəticələrə yekun vurulmuşdur. Azərbaycanın bəhs olunan dövrünə aid ingilis dilində olan iki cildlik "Karmelitlərin xronikası"nı araşdıraraq aşağıdakı nəticələrə gəldik:

- Papanın nümayəndələri Səfəvi imperiyasında yaşayan ermənilərlə bağlı daha çox maraqlanmağa başlamışlar. Hətta Culfa ermənilərinin statistik təhlillərini belə aparmağı unutmamışlar. [5;13]
- Səfəvi paytaxtında məskunlaşan karmelit ordeninin üzvləri Şah I Abbasın ölkədə apardığı uğurlu daxili və xarici siyasətini, xüsusilə əvvəlki dövrdə itirilmiş ərazilərin Osmanlı türklərindən geri alınmasını dərindən öyrənərək Avropa dövlətlərinə çatdıra bilmişlər. [6]
- Osmanlı imperiyasına qarşı müharibə aparan Qərb dövlətlərinin geniş hərbi-siyasi planları vardı. Karmelit ordenin nümayəndələri I Şah Abbasdan ilk vaxtlar müxtəlif imtiyazlar əldə etməyə çalışır, kilsələr tikir, xristianlıq təbliğ olunurdu.[1]

---

[44] A Chronicle of Carmelits in Persia. [in 2 vol.] / ed. H. Chick. intr. R. Matthee. – London; New York: I. B.Tauris, − vol. 1. – 2012. – p . 450.

[45] Дяконов, И.М. Предыстория армянского народа / И. М. Дяконов. – Ереван: АН Армянской ССР, − 1968. – с. 21.

– XVII əsrin 30-60-cı illərində Səfəvi imperiyasının daxili ictimai-siyasi vəziyyətindən bəhs edən "Karmelitlərin xronikası"ndan məlum olur ki, Şah Səfinin hakimiyyətinin ilk illərində Səfəvi imperiyasında daxili ictimai-siyasi vəziyyət elə də ürəkaçan deyildi. Bir tərəfdən yeni hakimiyyətə qarşı ölkənin müxtəlif əyalətlərində üsyanlar baş qaldırır, digər tərəfdən, əvvəlki bəhslərdə də qeyd etdiyimiz kimi, "türk təhlükəsi" qalırdı. [8]
– Şah Səfinin ölümündən sonra Səfəvi sarayında yaranmış vəziyyəti nəql edən "Karmelitlərin xronikası" isə azyaşlı hökmdarın idarəçilikdə elə bir səriştəsinin olmaması, ümumiyyətlə, bu hakimiyyət dövründə Şah və İsfahanda olan Avropa dini icmaları arasında əvvəlki yarım əsrdəki kimi nə gizli, nə açıq, nə də birbaşa danışıqlar olmaması qeyd olunur. [12]
– Avropa kapitalının Səfəvi dövləti hüdudlarındakı bazara çıxışı uğrunda XVI əsrdə başlanmış mübarizəsi XVII əsrin əvvəllərində daha güclənir. Şərq bazarında hökmranlıq uğrunda Hollandiya, Venesiya, Portuqaliya və İngiltərə kapitalları arasında mübarizənin gedişində Venesiya kapitalı arxa plana keçir. [7]
– XVII əsrin əvvəllərindən etibarən İsfahandan Karmelit ordeninin üzvləri tərəfindən göndərilən məlumatlarda Hollandiyanın Portuqaliya və İngiltərə üzərində şəriksiz qalibiyyətindən bəhs olunurdu. [10]
– Şərqi Hind Kompaniyasının nümayəndələri Səfəvi imperiyasında əlverişli məqam axtarır, bəzən isə Səfəvi bazarında artıq mövcud olan Portuqaliya və digər rəqiblərini sıxışdırıb çıxarmaq üçün Şahdan imtiyazlar qoparmağa çalışırdılar. [4]
– Roma papalarının və Avropa səfirlərinin Səfəvi hökmdarları ilə yazışmalarının mətni isə açıq-aşkar göstərir ki, incə və ehtiyatlı siyasət yürüdən Papa və ardıcılları "türk təhlükəsi"ni həzm edə bilmədiklərindən Səfəvi imperiyası timsalında özlərinə dayaq axtarır, Osmanlı dövlətini qəddar və tiraniya rejimi kimi

qələmə verir, özlərinin yürütdükləri xristian missiyasını isə ümumi siyasətin fonunda “unudurdular.” [3]

– Bütövlükdə, araşdırılan mənbədə yalnış məlumatlar da yer almışdır. Məsələn, “Səfəvi-Osmanlı müharibələri zamanı “Böyük Ermənistan” ifadəsi və hətta xristian təəssübkeşliyi fonunda İrəvan şəhərinin böyük ermənistanın qala şəhəri kimi təqdim olunması” təbii ki, tarixin təhrif edilməsindən başqa bir şey deyildir. [9]

– “Karmelitlərin xronikası” əsasında Səfəvi imperiyasının xristian əhalisi arasında Avropalı missionerlərin dini təbliğatının araşdırılması göstərir ki, müsəlmanlar arasında elə bir uğur qazana bilməyən karmelitlər əvvəlki Səfəvi hökmdarlarının dövründə olduğu kimi, yenə də əsas diqqəti imperiyanın xristian əhalisinə yönəldirdilər. Xristian əhali içərisində isə qriqoriyan ermənilərlə bağlı məlumatlar daha çox yer almış, lakin bu məlumatlardan bəhs edərkən Azərbaycan tarixi başdan-başa təhrif edilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalə və konfrans materiallarında öz əksini tapmışdır:**

1. Carmelite missions in Safavi state in the period of Shah Abbas I (1587-1629) // – Kiyev: Qileya, − 2014. № 12 (91), − s.173-176.
2. Karmelit xronikasında Şah Səfinin hakimiyyəti illərində katolik missionerlərinin fəaliyyəti // Gənc tədqiqatçıların IV Beynəlxalq Elmi konfransı, − Bakı: Qafqaz Universiteti, − 29-30 aprel, − 2016, − s. 1700-1702.
3. Səfəvi – Osmanlı müharibələrində Qərb diplomatiyasının rolu Avropa mənbələrində // Müasir Türkoloji tədqiqatlar: Problem və perspektivlər mövzusunda Beynəlxalq Elmi konfrans, − Bakı: AMEA Şərqşünaslıq İnstitutu, − 21-22 noyabr, − 2016, − s. 61-62.
4. Səfəvi – Avropa əlaqələri “Karmelit xronikası”nda // Gənc tədqiqatçıların I Beynəlxalq Elmi konfransı, − Bakı: Bakı Mühəndislik Universiteti,- 5-6 may, − 2017, − s. 1076-1077.

5. “Karmelit xronikası” əsərinin səciyyəvi xüsusiyyətləri haqqında // − Bakı: AMEA Tarix İnstitutunun Elmi Əsərləri, − 2017. № 67, − s. 83-90.
6. I Şah Abbasın hakimiyyəti dövründə (1587-1629) Səfəvilər imperiyasının siyasi həyatı (“Karmelit xronikası”əsasında) // − Bakı: AMEA Tarix İnstitutunun Elmi Əsərləri, − 2017. № 68, − s.26-37.
7. Azərbaycan Səfəvi imperiyasında nüfuz uğrunda Avropa dövlətlərinin mübarizəsi (“Karmelit xronikası” əsasında) // − Bakı: Geostrategiya, − 2017. № 6 (42), − s.47-50.
8. Şah Səfinin (1629-1642) hakimiyyəti illərində katolik missionerlərinin Səfəvi imperiyasında dini ayrı seçkilik cəhdləri // − Bakı: AMEA Tarix İnstitutunun Elmi Əsərləri, 2018. № 69, − s. 103-112.
9. Səfəvi imperiyasının xristian əhalisi arasında Avropalı missionerlərin dini təbliğatı (“Karmelit xronikası” əsəri əsasında) // − Bakı: Qərbi Kaspi Universiteti Elmi Xəbərləri, − 2018. № 1, − s. 113-120.
10. Səfəvi-İngiltərə münasibətləri “Karmelit xronikası”nda // AXC- 100 Beynəlxalq elmi konfransı, − Bakı: Bakı Dövlət Universiteti, − 21-23 may, − 2018, − s. 679-683.
11. Nadir şah Əfşar “Karmelit xronikası”nda // − İstanbul: Akademik Tarih ve Düşünce, − 2019. № 6 (5), − s.210-230.
12. Orta əsrlərdə Azərbaycanda dini dözümlülük Avropa missionerlərinin əsərlərində // İslam sivilizasiyası Qafqazda II Beynəlxalq simpozium, − Bakı: Azərbaycan İlahiyyat İsntitutu, − 11-12 iyul, − 2019, − s. 403- 407.
13. Сефевидское государства в кармелитах и их хрониках // Все российской научно – практической конференции «Языки коренных народов Кавказа – важный фактор устойчивого развития, построения мира и примирения», − Кизляр: Алеф, − 28 сентябрь, − 2019, − с. 235-242.

Dissertasiyanın müdafiəsi 18 mart 2022-ci il tarixində saat 10-da Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutunun nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti,115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.
Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 15 fevral 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: ___________

Kağızın formatı:A5

Həcmi: 42977

Tiraj:100